ISSN: 2148-2292

Akademik Tarih ve Düşünce Dergisi, 2018, 5 (16), ss. 220-240

Academic Journal of History and Idea, 2018, 5 (16), pp. 220-240

Araştırma Makalesi
Original Article

# 1970-ci İllərin Sovet Tarixşünaslığında Azərbaycan Xalq Cümhuriyyətinə Münasibət

**Ruhengiz Kerimli***

**ORCID:0000-0001-7069-9687**

**Öz**

1990'lı yıllarda bağımsızlığını yeniden kazandıktan sonra Azerbaycan'da siyasi tarihin araştırılması yönünde birtakım işler görülmeye başlandı. Lakin Azerbaycan Halk Cumhuriyeti'ne 1970'li yılların Sovyet tarihçiliğinde mevcut olan bakışın araştırılmaması, Cumhuriyet tarihinin tetkiki meselesinde boşlukların olduğunu ortaya koymuştur.Sovyet devletinin son yirmi yılında, totaliter rejimin legalliğinin temellendirilmesi amacıyla, Azerbaycan'da Sovyet hakimiyetinin kurulmasına hasredilmiş araştrmalar devam etmekteydi. Bu dönemde, kaleme alınan eserlerde Ekim Devrimi, dünya siyasetinin yönünü değiştiren bir olay olarak karakterize edilmekte, Komünist Parti ise dünyada egemen güç olarak gösterilmekteydi. Lakin tüm çabalara rağmen bu araştırmalarda Sovyet hakimiyetinin işgalci siyaseti ortaya çıkmakta, SSCB'nin eski Rusya İmparatorluğu'nun varisi olduğu kabul edilmekteydi. Bu anlamda 1970'li yılların Sovyet tarihçilğinde Azerbaycan Halk Cumhuriyeti, bir partinin çıkarlarının ve hakim tabakanın menfaatlerinin savunucusu olarak, "devrim karşıtı Müsavat Partisi Hükümeti" şeklinde takdim edilmekle, halkla bir ilgisinin olmadığı ispata çalışılmaktaydı.Genel olarak Azerbaycan Hükümeti'nden bahsedilmemekte, lakin istenmeden de olsa işgal vurgulanmaktadır. Sovyet hakimiyetinin kuruluşu, Cumhuriyetin devrilmesinden geçtiğine göre, tüm Sovyet yazarları-bazıları açıkça, bazıları ise kapalı ifadelerle-Azerbaycan Hükümeti'nden bahsetmek zorunda kalmışlardır. Lakin siyasi konjonktür açısından kaleme alınmış eserlerde, Azerbaycan Halk Cumhuriyeti olayların temel nedeni olarak kaydedilmekle, Sovyet sisteminin kutsal ilan ettiği kültlerin ideolojik sebatsızlığını ortaya çıkarmıştır.Sonuç olarak, ideolojik çizginin etkisi ile yapılan araştırmalarda Azerbaycan Cumhuriyeti inkar edilemez gerçeklerle devlet statüsünde takdim edilmekle, totaliter rejimin belirlediği sansür kurallarının çiğnendiği gözlemlenmektedir. Lakin Sovyet ideologlarının tekdüze yaklaşımına rağmen milli hükümet, sosyal-siyasi düşünceye tarihi olayların katalizatörü olarak takdim edildiğinden, Azerbaycan Halk Cumhuriyeti'nin siyasi legalliği kabul edilmiştir.

**Anahtar kelimeler**: Azerbaycan Halk Cumhuriyeti, totaliter rejim, legallik, işgal, Komünist Partisi, Sovyet tarihçiliği

**Gönderme Tarihi: 30/07/2018 Kabul Tarihi:30-08-2018**

---

* *Azerbaycan Milli İlimler Akademisi Tarih Enstitüsü Doktora Öğrencis, E-Postai ruhangiz.karim-1973@mail.ru*

© 2018 ATDD Tüm Hakları Saklıdır

CC BY

# Attitude To The Azerbaijan Democratic Republic In The Soviet Historiography Of The 1970 Years

**Abstract**

After the restoration of independence in the 1990s, a number of studies have been undertaken to revise political history in Azerbaijan. However, the fact that the Azerbaijan Democratic Republic did not investigate the Soviet historiography of the 1970s shows the existence of gaps in the study of the history of the Republic. In the last twenty years of the Soviet state, the research on the establishment of Soviet power in Azerbaijan was continued to justify the legitimacy of the totalitarian regime. In this sense, in the Soviet historiography of the 1970s, the People's Republic of Azerbaijan is trying to prove that it has nothing to do with the people, representing the interests of one party and the defender of the interests of ruling class, as "the government of the oppressive Musavat party". Generally, the Azerbaijani government is not mentioned, but the occupation is unequivocal.As a result, in the studies written under the influence of the ideological line, the violation of the censorship rules established by the totalitarian regime is observed, with the submission of the State of Azerbaijan's state of affairs with irreconcilable facts. However, despite the rebellious approach of Soviet ideologists, the political legitimacy of the Azerbaijan Democratic Republic is confirmed, as the national government is presented as a catalyst of historical events to the socio-political thought.

**Keywords:** Azerbaijan Democratic Republic, totalitarian regime, legitimacy, occupation, Communist party, soviet historiography

**Received Date: 30/07/2018** **Accepted Date: 30/08/2018**

# Отношение к Азербайджанской Демократической Республике в советской историографии 1970-х годах

**Резюме**

После восстановления независимости в 1990-х годах был проведен ряд исследований по пересмотру политической истории в Азербайджане. Однако тот факт, что Азербайджанская Демократическая Республика не исследовала советскую историографию 1970-х годов, свидетельствует о наличии пробелов в изучении истории Республики. В последние двадцать лет советского государства исследования о создании Советской власти в Азербайджане продолжали оправдывать легитимность тоталитарного режима. Однако, несмотря на все усилия, проявляется агрессивная политика советского правительства, подтверждается вопрос о преемнике СССР в бывшей Российской империи. В этом смысле, в советской историографии 1970-х годов, Азербайджанская Демократическая Республика пытается доказать, что она не имеет ничего общего с народом, представляющим интересы одной партии и защитником интересов господствующих классов, как «правительство гнетущей партии Мусават». Как правило, правительство Азербайджана не упоминается, но оккупация недвусмысленна. Дело в том, что, поскольку Советская власть была свергнута Республикой, все советские авторы - некоторые открыто и другие - должны подвергать правительство Азербайджана линейным путем. Однако в работах, написанных с точки зрения политического сближения, Азербайджанская Демократическая Республика является фундаментальной причиной событий, раскрывая идеологическое несовершенство культов, объявленных советской системой как священные. В результате в исследованиях, написанных под влиянием идеологической линии, наблюдается нарушение правил цензуры, установленных тоталитарным режимом, с представлением состояния дел в Азербайджанской Республикой с непримиримыми фактами. Однако, несмотря на мятежный подход советских идеологов, подтверждается политическая легитимность Азербайджанской Демократической Республики, поскольку национальное правительство представлено как катализатор исторических событий для общественно-политической мысли.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, тоталитарный режим, законность, оккупации, Коммунистическая партия, советская историография

**Получено: 30/07/2018** **Принято: 30/08/2018**

## Giriş

1990-cı illərdə müstəqilliyin bərpasından sonra Azərbaycanda siyasi tarixin yenidən öyrənilməsi istiqamətində bir sıra işlər görülməyə başlandı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinə 1970-ci illərin sovet tarixşünaslığının münasibətinin araşdırılmaması Cümhuriyyət tarixinin tədqiqində boşluqların olduğunu ortaya qoyur.

Qeyd edək ki, 1960-cı illərin sonu 1970-ci illərin əvvəllərində sovet tarixşünaslığında oktyabr inqilabının tənqidi yönümündə yeni cərəyan for- malaşdı. Belə ki, bir qrup tarixçi oktyabr inqilabı ərəfəsində qüvvələr nisbə- tinin sovet tarixşünaslığında qeyd edildiyi kimi olmadığını bildirirdilər. Yeni cərəyanın nümayəndələri-Pavel Volobuyev, Konstantin Nikolayeviç Tarnovski, Aron Yakovleviç Avrex, Leonid Mixayloviç İvanov və digərləri inqilabın yetkinlik dərəcəsinin və maddi şərtlərinin həddən artıq yüksəldil- məsi mülahizəsini irəli sürdülər. Sözü gedən alimlər hesab edirdilər ki, ilk vaxtlarda bolşeviklərə qarşı olan siyasi və sinfi qüvvələr bloku daha geniş idi.[1]Bu barədə 1988-ci ildə Moskvada "Прогресс" nəşriyyatında tarix elmləri doktoru Yuri Afanasyevin ümumi redaktorluğu ilə alimlərin məqalə- lərindən ibarət "Перестройка: гласность, демократия, социализм. Иного не дано" (Yenidənqurma: aşkarlıq, demokratiya, sosializm. Başqa yol yoxdur) məcmuəsi nəşr olunmuşdur. Akademik Aleksandr Yevgeniyeviç Bovin topluda "Перестройка: правда о социализме и судьба социализма" (Yenidənqurma: sosializm haqqında həqiqət və sosializmin taleyi) adlı xatirəsində yazır ki, Xruşşovun gedişindən sonra stalinçilərin təzyiqi təkrarən gücləndi. Fikirlərinə davam edən müəllif, stalinizmin yenidən dirçəlməsini L.İ.Brejnevin bu məsələyə birmənalı olmayan münasibətinə bağlayır.[2] Qeyd edilən dövrdə sovet tarix elminin stalinizmə dönüşünü müşahidə edə bilərik. Məsələn, 1966-cı ilin fevralında SSRİ EA-nın Tarix İnstitutunda çıxış edən A.Y.Avrex "Stalinin şəxsiyyətinə pərəstiş dövrü" fikrinin qeyri-elmi və uğursuzluğunu irəli sürərək, "Stalin və dövr" sözlərinin çıxarılmasını təklif etmişdir. Rafael Şalomoviç Qanelin A.Y. Avrexin Stalinə bəraət qazandırmağa çalışdığını iddia edir[3].

---

[1]P.V.Volobuyev, "V.İ.Lenin ob obşix zakonomernostyax Velikoy Oktyabrskoy sosialistiçeckoy revolyusii (V.İ.Lenin Böyük Oktyabr sosialist inqilabının ümumi qanunauyğunluqları haqqında )", Moskva, 1966,s.48; K.N. Tarnovskiy "Sovetskaya istorioqrafiya Rossiyskoqo imperializma" (Rusiya imperializminin Sovet tarixşünaslığı), Moskva, 1964, s.244; Avrex A.Y. "Russkiy absolyutizm i eqo rol v utverjdenii kapitalizma v Rossii", (Rus mütləqiyyəti və Rusiyada kapitalizmin möhkəmlənməsində onun rolu), İstoriya SSSR, 1968, № 2, s. 82-104; L.M. İvanov "Samoderjaviye i raboçiy klass: nekotorıye voprosı politiki tsarizma (Mütləqiyyət və fəhlə sinfi: çarizmin siyasətinin bəzi məsələləri)" )", Voprosı istorii. 1968, № 6, İyun, s. 38-53.

[2] A.E.Bovin, "Perestroyka: pravda o sosializme i sudba sosializma". Perestroyka: qlasnost, demokratiya, sosializm.. İnoqo ne dano. Proqress, Moskva, 1988, s. 536.

[3] R.Ş. Qanelin, " Tvorçeskiy put A.Y.Avrexa". İstoriya SSSR, 1990, № 4, Moskva, s. 105.

1967-ci ildə Sov.İKP.MK-nın "İctimai elmlərin kommunist qurucu- luğunda rolunun yüksəldilməsi və gələcək inkişafı üzrə tədbirlər haqda" qə- rarı tarix elmində ehkamçılığın və əzbərçiliyin tədrici dirçəlişi prosesini sü- rətləndirdi.[4]

1969-cu ildə "Kommunist" jurnalında bir qrup alimin-Aqdas Xusai- noviç Burqanov, Boris Moiseyeviç Leybzon, Vladimir Aronoviç Dunayevski, Yuri Andreyeviç Krasinin kəskin tənqid edildiyi "За ленинскую партийность в освещении истории КПСС" (Leninçi partiyalılıq Sov. İKP tarixinin işıqlandırılmasında) adlı məqalə dərc olundu[5].

Siyasi rejim repressiyalar yolu ilə elmi müxalifəti zərərsizləşdirmək- lə, hərbi-siyasi işğaldan iqtisadi-mədəni işğala keçidi sürətləndirdi. Qeyd edilən siyasi repressiyalar tarix elmində gözlənilən nəticəni verməsə də, fərqli düşüncəyə malik analitik təfəkkürlü sovet alimlərinin SSRİ-dən mü- hacirətə getməsini şərtləndirdi. Bu isə özlüyündə tarix elmində hərtərəfli boşluqlara yol açdı.

Yuxarıda göstərdiyimiz kimi, siyasi dairələr tarix elmi sahəsindəki intibahın qarşısını almaq məqsədilə repressiyalar həyata keçirsə də, tarixi həqiqətin bərpasına mane ola bilmədilər. Belə ki, 1970-ci illərdən başlaya- raq yazılan əsərlərdə oktyabr çevrilişindən əvvəlki dövr və siyasi qüvvələr mübarizəsi daha geniş surətdə işıqlandırılmağa başlandı.

Bununla yanaşı, sovet dövlətinin son iyirmi ilində totalitar rejimin legitimliyinin əsaslandırılması məqsədilə Azərbaycanda sovet hakimiyyəti- nin qurulmasına həsr olunmuş tədqiqatların yazılması davam edirdi. Bu dövrdə qələmə alınan əsərlərdə[6] oktyabr çevrilişi dünya siyasətinin istiqamətini dəyişən hadisə kimi xarakterizə edilir, kommunist partiyası isə dünyada hegemon qüvvə kimi təqdim olunur. Lakin bütün səylərə baxmayaraq, tədqiqatlarda sovet hökumətinin işğalçı siyasəti üzə çıxır, SSRİ-nin keçmiş Rusiya imperiyasının varisi olması məsələsi təsdiqlənir. Bu baxımdan 1950-60-cı illərin tarixşünaslığında olduğu kimi 1970-ci illərdə meydana çıxan tədqiqatlarda Azərbaycan Cümhuriyyəti kommunist partiyasının vahidliyi və Leninin rolunun fetişləşdirilməsi fonunda arxa plandan müşahidə edilir.

---

[4]Sovetskaya istorioqrafiya 70-x-pervoy polovinı 80-x qodov XX veka (Sovet tarixşünaslığı XX əsrin70-ciilləri və 80-ci illərin birinci yarısında), https://studme.org/59663/istoriya/sovetskaya_istoriografiya_70-h_pervoy_poloviny_80-h_godov_veka, Erişim:20-07-2018.

[5] V.Qolikov, S.Muraşov, İ.Çxikvişvili i dr. "Za Leninskuyu partiynost v osveşenii istroii KPSS". Kommunist, 1969, № 3, Moskva, s. 72.

[6] T.F.Şoloxova, Azərbaycan SSRİ xalqlarının vahid ailəsində, 1977, Bakı, 50 s.; A.S.Sumbatzade, Sosialno-ekonomiçeskiye predposılki pobedı Sovetskoy vlasti v Azerbaydjane, 1972, Nauka, Moskva, 254 s.; eqo je: "Zarya Oktyabrya i rojdeniye Sovetskoqo Azerbaydjana". Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, Elm, Baku, 1977, s. 5-18; M.Rüstəmbəyli, Xalqın səadəti uğrunda, 1971, Azərnəşr, Bakı, 11 s.; və s.

Z.İbrahimovun yeni quruluşun bərqərarında V.İ.Leninin "müstəs- na" rolunu işıqlandırdığı, 1970-ci ildə çap olunmuş "Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi" monoqrafiyası qeyd edilən əsərlər sırasında- dır. Müəllifin məqsədi sosialist inqilabının qələbəsindəki proseslərdə V.İ. Leninin fəaliyyətini önə çəkməklə "əvəzsiz lider" statusuna "möhür" vur- maqdır və qarşıya qoyulmuş vəzifənin öhdəsindən "layiqincə" gəldiyini əminliklə deyə bilərik. Amma bununla bərabər, müəllif, "siyasi səhv"lərə yol verir. Belə ki, müəllifin fikirlərində ideoloji konsepsiyadan kənara çıxmalar müşahidə olunur ki, bu da təbiidir. Çünki sovet hakimiyyəti Cümhuriyyətin devrilməsi nəticəsində qurulmuşdu və müəllif, bolşeviklərin mübarizəsinin yönəldiyi hədəfi mütləq göstərməli idi. Cümhuriyyətin "sovet hakimiyyəti və boşevizmi"i məhv etmək üçün yaradılmasını önə çəkən müəllif[7], kommunist ideologiyasının siyasi əhəmiyyətini genişləndirmək məqsədini güdür. Belə ki, müəllif, sovet hakimiyyəti uğrunda mübarizəni işıqlandırar- kən, milli hökumətə "Müsavat Azərbaycanı", "Müsavat hökuməti" burjua-mülkədar", "müsavat əksinqilabı", "müdaxiləçilər və müsavatçılar, mülkə- dar hökmranlığı", "Usubbəyov və Xanxoyski hökuməti", "müsavat ağalığı" ifadələri ilə izah verərək, inqilabın daxildən yetişdiyi fikrini formalaşdırma- ğa çalışır. Z.İbrahimov, Cümhuriyyətin rəsmi adını bir dəfə çəkmir, lakin tədqiqatda "Azərbaycan respublikası hökuməti", "Azərbaycan hökuməti"[8], istilahlarına müraciət etməklə Azərbaycan Cümhuriyyətinin qanuniliyini təsbitləyir.[9]

Z.İbrahimovun xələfi Xasay Əliyev 1970-ci ildə nəşr edilmiş, Azər- baycanda siniflər mübarizəsini və sovet hakimiyyəti ərəfəsində mövcud ictimai-siyasi vəziyyyətin təhlilini apardığı "Azərbaycanda sosialist inqila- bının bəzi xüsusiyyətləri" tədqiqatında Cümhuriyyətə toxunur. Qeyd edək ki, digər sovet müəllifləri kimi X.Əliyev, siyasi quruluşun ideoloji üstün- lüyünü ortaya çıxaran əsər yazmalı idi. Məhz qeyd edilən səbəblərdən do- layı X.Əliyev, yaranmasını bildirmədiyi Azərbaycan Cümhuriyyəti zama- nındakı siyasi proseslərdən bəhs edir. X.Əliyev sovet rejiminin təbliğinə həsr etdiyi araşdırmasının "Müsavat zamanı bolşeviklərin taktikası" bölü- mündə Cümhuriyyəti müzakirəyə çıxararaq, hərtərəfli təhlilini verir[10].

Müəllif, Cümhuriyyəti "müsavat və xarici müdaxiləçilərin ağalığı", "hakim siniflərin hökmranlığı, "milli qüvvələrin "müstəqil" burjua-mülkə- dar Azərbaycanı", "müsavatçı quldurlar" kimi xarakterizə edir.[11] Gördüyü- müz kimi, X.Əliyev, Cümhuriyyəti kommunist partiyasının yaranma səbəbi kimi işıqlandırmaqla, hadisələrin mərkəzinə çıxarır.

---

[7] Z. İbrahimov, Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi, 1978, Azərnəşr, Bakı, s. 387-290.
[8] a. g. e. s. 288-394
[9] a..g. e. s. 390
[10] X.Əliyev, Azərbaycanda sosialist inqilabının bəzi xüsusiyyətləri, 1970, Azərnəşr, Bakı, s. 118.
[11] Əliyev, a.g.e. s. 50-69.

Sovet hakimiyyətinin qurulmasında iştirakçılardan biri, hərbçi İvan Qriqoriyeviç Dudinin sovet hökumətinin 50 illiyinə həsr olunmuş, 1970-ci ildə Azərbaycan Dövlət Nəşriyyatında çapdan çıxmış “Прорыв бронепоез- дов” (Zirehli qatarların yarıb keçməsi) avtobioqrafik kitabında[12] Azərbaycan Cümhuriyyəti qeyd edilmişdir. Məsələ ondadır ki, İ.Dudin Azərbaycanda sovet hakimiyyətinin qurulması prosesini təsvir etsə də, əslində Azərbaycan Cümhuriyyətinin süqutu fonunda Azərbaycanın işğalını gündəmə gətirir. XI Qırmızı Ordunun Qafqazın, xüsusilə Azərbaycanın istilasını həyata keçirmək məqsədilə yaradıldığı aydın olur. Ziddiyyətli mövqe sərgiləyən müəllif, Azərbaycan hökumətinin müqavimətini etiraf edərək, Cümhuriyyətin devrilməsinə müxtəsər şərh verir.[13]

Qeyd edək ki, müəllif, Azərbaycan Cümhuriyyətini bir partiyanın maraqlarının və hakim siniflərin mənafeyinin müdafiəçisi ”əksinqilabi Mü- savat partiyası hökuməti” kimi göstərməklə xalqa heç bir dəxli olmadığını isbat etməyə çalışır. Ümumiyyətlə Azərbaycan hökuməti qeyd edilmir, lakin işğal qeyri-ixtiyari vurğulanır. Məsələ ondadır ki, sovet hakimiyyətinin qu- rulması Cümhuriyyətin devrilməsindən keçdiyinə görə bütün sovet müəllif- ləri-bəziləri açıq şəkildə, digərləri isə sətiraltı ifadələrlə Azərbaycan höku- mətini ortaya çıxarmalı olurlar. İ.Dudin isə Azərbaycanın işğalındakı bütün prosesləri peşəkar hərbçi dəqiqliyi ilə təsvir edərək, istilanın əvvəlcədən planlaşdırıldığını nəzərə çatdırır.

Azərbaycanda kommunist quruluşunun qələbəsinə əsərlər yazmış Aron Milman 1971-ci ildə çapdan çıxmış, sosializmin tərənnümünə həsr etdiyi “Азербайджанская ССР - суверенное государство в составе СССР” (Azərbaycan SSR - SSRİ-nin tərkibində suveren dövlətdir) əsərində Azərbaycan Cümhuriyyətinə münasibət bildirir. Müəllif, Cümhuriyyəti ziddiyyətli -“burjua-mülkədar müsavat dövlət aparatı”, “milli hökumət”, “Gəncədə toplaşmış Müsəlman “Milli şurası”nın “müstəqil Azərbaycan respublikası”, “Müsavat rejimi”, "Gəncədə formalaşdırılmış müsavat hökuməti”, “Müsavat dövlət aparatı”, “antixalq”, “türk, alman və ingilis müstəmləkəsi”[14] ifadələri ilə təqdim edir.

Azərbaycanda sovet hakimiyyəti qurulması gedişini təsvir edərkən, Cümhuriyyətin bolşeviklərin silahlı müdaxiləsi yolu ilə devrildiyini açıqla- maqla təzadlı fikirlər irəli sürən müəllif, milli hakimiyyətin müstəqil olma- dığını vurğulayır, digər tərəfdənsə Cümhuriyyəti strukturları formalaşmış hökumət kimi interpretasiya edir.[15]

A.Milman - hüquq elmləri doktoru, mövcud ideologiyanın nümayən- dələrindən biri simasında sovet Rusiyasının işğal faktını əsaslandırmaqdan ötrü rəsmi

---

[12] İ.Q.Dudin, Prorıv bronepoezdov, 1970, Azerneşr, Baku, s.67.
[13] Dudin. a.g.e., s. 58-59.
[14] A.Ş. Milman, Azerbaydjanskaya SSR-suverennoe qosudarstvo v sostave SSSR, 1971, Azerneşr, Baku, s. 3-30.
[15]Milman, a.g.e. s. 41-44.

strukturların sifarişilə yazdığı əsərdə rasional elmi mövqe nümayiş etdirərək, sosializm quruluşundan əvvəlki ictimai-iqtisadi formasiyanı vurğulayır. Sovet rejimini mədh etməsinə rəğmən müəllif, Azərbaycan Cümhuriyyətinə təfsilatlı şərh verir. Milli hökuməti ictimai-siyasi fikrin predmeti kimi təqdim edən A.Milman, qeyri-ixtiyari dövlət statusunda təsnifləndirməklə sistemin ideoloji əsaslarının amorfluğunu ortaya qoyur.[16]

Sovet hökumətinin təsisi münasibətilə 1971-ci ildə çap olunmuş "Xalqın səadəti uğrunda"[17] tədqiqatında Məmməd Rüstəmbəyli Cümhuriy- yəti vurğulamışdır. Qeyd edək ki, müəllif, Quba qəzasındakı siyasi hadisə- ləri diqqətə çatdırmışdır. Cümhuriyyətin yaradılması ərəfəsindəki və sonrakı dövrü vətəndaş müharibəsi kimi təsvir edən müəllif, sovet ideologiyasının təbliğçisi sifətində bolşeviklərin Azərbaycanı işğal etməsinə haqq qazandı- rır. Müəllif, Zaqafqaziya Seyminin buraxılmasından sonra yaradıldığını qeyd etməklə, Cümhuriyyəti tarixi proseslərin nəticəsi kimi ortaya qoyur. Cümhuriyyəti "açıq irtica və soyğunçuluq", "Müsavat hökumətinin qanlı ağalıq dövrü", Azərbaycanda Türkiyə işğalçılarının fəal köməyi ilə yaradılan "əksinqilabi Müsavat hökuməti", "Müsavat hakimiyyəti" kimi səciyyə- ləndirən müəllif, silahlı üsyanın detallarını izah etməklə, Cümhuriyyətin devrilməsində Rusiyanın rolunu açıq şəkildə ortaya qoyur.[18]

Müəllif, siyasi opponent olaraq, Cümhuriyyətin heç bir tədbirini nəinki işıqlandırmır, ümumiyyətlə, adını çəkmir. Maraqlıdır ki, əsər Sovet hakimiyyətinə həsr olunmasına baxmayaraq, Azərbaycan Cümhuriyyəti ha- disələrin katalizatoru rolunda təzahür edir ki, bu da sovet tarixşünaslığında ənənəvi strategiyanın pozulması deməkdir. Əsas etibarilə, mənfi müstəvidə sosial-siyasi mühitin seqmenti kimi səciyyələndirilən Azərbaycan Cümhu- riyyəti tədqiqatın əsas istiqamətini müəyyənləşdirir.

Əlisöhbət Sumbatzadənin Azərbaycanda sovet hakimiyyəti qurulması "şərəfinə" yazdığı, 1972-ci ildə Moskvanın "Наука" nəşriyyatın- da çapdan çıxmış "Социально-экономические предпосылки победы Советской власти в Азербайджане" (Azərbaycanda sovet hakimiyyətinin qələbəsinin sosial-iqtisadi zəminləri) adlı araşdırmasında sosial-iqtisadi şərtlərin əhatəli təhlili ilə sovet quruluşunun meydana gəlməsini əsaslandırmalı idi. Müəllif, 1918-1920-ci illəri "xarici müdaxilə və millətçilərin ağalığı", "imperialistərin ağalığı" və "müsavat hökuməti" kimi xarakterizə etməklə, Azərbaycanın müstəqilliyinin qeyri-real olduğunu bildirir. Cümhuriyyəti "vətəndaş müharibəsi, xarici müdaxilə və müsavat rejimi", "müsavat hökuməti", "antixalq mahiyyətli müsavat rejimi" adlandırdığı

[16] Milman, a.g.e. s. 26-28.
[17] M.Rüstəmbəyli, Xalqın səadəti uğrunda, 1971, Azərnəşr, Bakı, s.11.
[18] M.Rüstəmbəyli, Xalqın səadəti uğrunda, 1971, Azərnəşr, Bakı, s. 30-47.

Cümhuriyyətin müstəqil olmadığına diqqət çəksə də, bütün strukturları formalaşmış dövlət formasında vurğulayır.[19]

Göründüyü kimi, Ə.Sumbatzadə sovet siyasi baxışlarının təsirilə yazdığı əsərdə qeyri-sabit mövqe sərgiləyir. Çünki əsər boyu müəllifin bir cümləsi digər ifadəsini təkzib edir. Birpartiyalı sistemin yazılmamış qanun- larına görə Ə.Sumbatzadə Azərbaycanda sovet quruluşundan əvvəl hər han- sı bir hakimiyyətin mövcudluğunu inkar etməlidir. Lakin tarixi hadisələrin obyektiv qanunauyğunluqları müəllifə siyasi prosesləri sıfırlamaq imkanı vermir. Məhz bu səbəbdən müəllif, tarixdən silməyə çalışdığı Azərbaycan Cümhuriyyətini yenidən xatırladır.

Partiya-dövlət nomenklaturasının göstərişi ilə 1970-ci illərdə kollektiv işlərin yazılması davam edirdi. Belə ki, 1973-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının “Azərbaycan tarixi” kitabı nəşr edildi. Kitabın əsas hissəsi Azərbaycanda sovet hakimiyyətinin qurulmasına həsr olunmuş- dur. Müəllif kollektivi Zaqafqaziya Seyminin dağılmasından bəhs etməklə Cümhuriyyətin siyasi situasiyanın tələbilə yarandığını bildirir. Ümumiyyət- lə, müəlliflər Cənubi Qafqazın üç respublikasının müstəqillyini “Sovet Rusi- yası”ndan ayrılmaq cəhdi kimi qiymətləndirərək, Cümhuriyyətin qeyri-qanuni olduğunu nəzərə çatdırırlar, digər tərəfdənsə Azərbaycan hökumətini tam tərkibdə açıqlayırlar.[20] Cümhuriyyəti ziddiyyətli ifadələrlə vurğulayan müəlliflər, “Müsavat hökuməti”[21] adlandırdıqları Cümhuriyyətin dövlət aparatı şəklində formalaşdığını ortaya qoymaqla əvvəlki mülahizələrini inkar edirlər. Təzadlı mövqelərinə davam edən müəlliflər, hökumətin müstəqil olmadığını, fəhlə və kəndlilərin mənafeyinə zidd siyasət yeritdiklərini bildirir, ikinci tərəfdənsə əmək nazirliyinin təsisi və parlament komissiyasında torpaq layihəsinin aylarla davam edən müzakirəsindən danışırlar.[22]Müəllif kollektivi sovet hökumətinin qələbəsini Cümhuriyyətin fəaliyyəti və süqutuna bağlamaqla, milli hakimiyyəti əsas mövzuya çevirirlər.

Beləliklə, sovet tarixçiləri Azərbaycanda sovet hökumətinin qurul- ması tarixini yazarkən Cümhuriyyətin 23 aylıq fəaliyyətini təfsilatlı şəkildə diqqətə çatdırmşlar. Ümumiyyətlə, Cümhuriyyət tədqiqatın mahiyyətini təşkil etməsi ilə Rusiyanın işğalçılıq siyasəti ortaya çıxır. Məsələ ondadır ki, sovet doktrinasının tələblərinə əsasən Cümhuriyyət haqqında danışılmamalı idi, lakin müəlliflərin hadisələri xronoloji ardıcıllıqla təsviri Azərbaycan milli hökumətini əsərin motivi kimi vurğulayır. Əsər sovet hökumətinin qurulmasını deyil, Azərbaycan Cümhuriyyətinin tənqidi aspektdən təhlilini xatırladır. Bir sözlə, Azərbaycan Elmlər Akademiyasının təşəbbüsü ilə nəşr edilmiş “Azərbaycan tarixi” kimi mühüm

[19]A.S.Sumbatzade, Sosialno-ekonomiçeskie predposılki pobedı Sovetskoy vlasti v Azerbaydjane. 1972, Nauka, Moskva, s. 185-213.
[20] Azərbaycan tarixi. 1973, Elm, Bakı, s. 124, s. 439.
[21] A. g. e., s. 152.
[22] A. g. e., s. 184.

layihəsində Azərbaycan Cümhuriyyəti hadisələri müəyyənləşdirən katalizator olaraq təsbit olunur.

Sovet partiya nomenklaturasında uzun illər yüksək postlar tutmuş Anastas İvanioviç Mikoyan siyasi mövqeyinin tələbinə, həmçinin Azərbaycanda sovet hakimiyyətinin qurulmasında iştirakına görə qeyd edilən mövzuda 1971-ci ildə çap etdirdiyi "Дорогой борьбы" (Mübarizənin yolları ilə) avtobioqrafik əsərində Azərbaycan Cümhuriyyətini şərh etmişdir. Müəllif, əsərini sovet hakimiyyətinin qurulması münasibətilə qələmə almışdır. Lakin sovet hakimiyətinin qurulmasını təsvir edərkən, əsas maneə kimi olan ortaya çıxan Azərbaycan Cümhuriyyətini qeyd etməyə məcbur olur. Azərbaycanın istilasını "Sovet Azərbaycanı" şüarı ilə pərdələyən, onun hansı dövlətin əsasında qurulduğunu göstərməyən[23] A.Mikoyan, milli hökuməti "müsavatçılar"[24], "Azərbaycan burjua ziyalılarının dövləti" ifadələri ilə vurğulayır. Müəllif, hökumət adlandırdığı Cümhuriyyətin[25], xalqın vəziyyətini yaxşılaşdırmaq üçün bir iş görmədiyini bildirməklə, əhalini "Sovet Azərbaycanı uğrunda mübarizəyə"- üsyana qaldırmağın labüdlüyünü əsaslandırmağa çalışır[26], sovet hakimiyyətinin qurulmasını qeyd etməsilə Cümhuriyyətin devrilməsini sətiraltı ifadə ilə bildirir[27]. Müəllif, Azərbaycan hökumətinin antixalq siyasətini qeyd etməklə, işğalın zəruriliyini əsaslandırır, digər tərəfdənsə bolşeviklərin sərbəst və azad fəaliyyətini ortaya qoyur.[28]

Gördüyümüz kimi A.Mikoyan, sovet rəhbərlərindən biri kimi Azər- baycanın işğalını fəhlə-kəndli hökumətinin qurulması aspektindən işıqlan- dırır. A.Mikoyan Azərbaycan xalqının sovet quruluşunu könüllü qəbul etdi- yini isbatlamaqla, tarixdən silmək fikrində olduğu Cümhuriyyəti xarakte- rizə etməli olur. Belə ki, müəllif, bolşeviklərin məhz Azərbaycan milli hö- kumətinə qarşı mübarizə apardığını bildirir. Müəllif, mənfi yönümdən təsvir etdiyi Azərbaycan Cümhuriyyətini qeyri-iradi dövlət kimi vurğulayır. Bax- mayaraq ki, müəllifin məqsədi Azərbaycanda sovet hakimiyyət qurulmasını ideologiyanın tələbləri çərçivəsində ictimaiyyətə çatdırmaq idi. Müəllifin Azərbaycan hökumətini inkar cəhdi iflasa uğrayır, çünki təsvirlərdə yer al- masa belə, Cümhuriyyət əsərin bazisini təşkil edir.

A.İ.Mikoyan Sovet hakimiyyətinin qurulmasında V.İ.Leninin əvəz- olunmaz rolunu işıqlandıran "Мысли и воспоминания о Ленине" (Lenin haqqında düşüncələr və xatirələr) adlı bioqrafik xatirəsində Azərbaycan Cümhuriyyətinə yer vermişdir. "Lenin bəsirəti" başlığında Lenin haqqında çoxlu monoqrafiya və araşdırmaların yazıldığını xatırladan[29]A.İ.Mikoyan, üç Zaqafqaziya respublikasında

---

[23] A.İ. Mikoyan, Doroqoy borbı. Kn. 1, 1971, Politizdat,Moskva, s.148.
[24] Mikoyan, a. g. e. s. 149-171, 360 s.
[25] Mikoyan, a. g. e. s. 361.
[26] Mikoyan , a. g. e. s. 362.
[27] Mikoyan , a. g. e. s. 369.
[28] Mikoyan , a. g. e. s. 370-395.
[29] A.İ. Mikoyan, Mısli i vospominaniya o Lenine. 1970, Politizdat, Moskva, s. 3.

sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizəni verərkən[30], Cümhuriyyətin süqutunu qeyd edir. Müəllif, 1920-ci ilin fevralında Azərbaycan kommunist partiyasının məhz sovet hakimiyyəti qurmaq məqsədilə yaradıldığını vurğulayaraq, Cümhuriyyətin bolşevik Rusiyasının əvvəlcədən hazırladığı sui-qəsd planı əsasında devrildiyini açıq mətnlə bildirir. Eyni zamanda müəllif, sovet hakimiyyətinin qan tökülmədən qalib gəldiyini[31] qeyd etməklə, ziddiyyətli məqamlara yol verir.

İdeoloji təbliğatın gücləndirilməsini daim nəzarətdə saxlayan siyasi rəhbərlik kollektiv monoqrafiyaların yazılmasına xüsusi diqqətlə yanaşırdı. Belə ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmasının 50 illiyi münasibətilə X.H.Vəzirov, C.B.Quliyev, A.A.Hüseynov və Q.Ə.Mədətovun 1974-cü ildə birgə tərtib etdikləri "Lenin milli siyasətinin yetirməsi" kitabçası[32] nəşr olunmuşdur.

Müəlliflər, Böyük oktyabr inqilabını burjua-mülkədarların istismarı, milli zülmün ləğvi və fəhlə və kəndlilərin hakimiyyətinin qurulması kimi xarakterizə edir.[33] 1924-cü ildə Naxçıvan Muxtar respublikasının yaradılma- sını Lenin milli siyasətinin nəticəsi olaraq qiymətləndirən müəlliflər, milli qüvvələri "əksinqilabçı qüvvələr və burjua ziyanın başqa orqanları", Cüm- huriyyəti isə "oyuncaq burjua dövləti", "müsavat Azərbaycanı", bir partiya- nın hakimiyyəti, xarici müdaxiləçilərin, onlara nökərçilik edən daşnak və müsavatçıların azğın hökmranlığı, qanlı rejimi", "burjua-mülkədar zülmü" adlandırmaqla Azərbaycan Xalq Cümhuriyyətinin qeyri-legitimliyini ictimai şüura yeridirlər.[34]

Beləliklə, Naxçıvanda sovet hakimiyyətinin qurulmasına həsr olu- nan araşdırmada Cümhuriyyət şərh edilir. Başqa sözlə, müəlliflər, sovet hakimiyyətinin Azərbaycan Cümhuriyyəti üzərində qurulduğunu etiraf et- məyə məcbur olurlar. Məsələ ondadır ki, motivin sovet hakimiyyətinin qu- rulması olmasına baxmayaraq, siyasi hadisələrin mürəkkəb əlaqə və münasibətlərində Cümhuriyyət müəyyənedici məzmun xətti kimi təzahür edir. Bu mənada, qeyd edilən məsələ diqqəti Cümhuriyyətin üzərinə yönəldir və ictimaiyyət alternativ hakimiyyətin nəinki mövcudluğu, hətta fəaliyyəti haqda məlumat alır. Yaranmış situasiya isə totalitar rejimin müəyyənləşdirdiyi rəsmi tarix konsepsiyası ilə ziddiyyət təşkil edərək, mötəbərliliyinə kölgə salır. Hakimiyyətin siyasi tələblərinə müvafiq mənfi müstəvidə formulirovka vermələrinə rəğmən, Azərbaycan Cümhuriyyətinə müəlliflərin loyal münasibəti müşahidə olunur.

Tatyana Fyodorovna Şoloxovanın Sovet hakimiyyətinin 60 illiyi mü- nasibətilə Azərbaycan SSR "Bilik" Cəmiyyəti tərəfindən mühazirəçiyə kö- mək seriyasından nəşr olunmuş "Azərbaycan SSRİ xalqlarının vahid ailəsin- də" kitabçasında Azərbaycan Cümhuriyyətindən üstüörtülü-müxtəsər şəkil- də bəhs

[30] Mikoyan , a. g. e. s. 76-79
[31] Mikoyan , a. g. e. s. 80.
[32] Lenin milli siyasətinin yetirməsi. 1974, Azərnəşr, Bakı, s.94.
[33] Lenin milli siyasətinin yetirməsi, s.5-6
[34] Lenin milli siyasətinin yetirməsi, s. 23-27.

edilir. Oktyabr çevrilişini "dünyanı sarsıdan hadisələr" kimi xarak- terizə edən müəllif, yeni quruluşu "istismarın, ictimai, milli zülm" üzərində qələbəsi kimi qələmə verir. Tarixi hadisələrin xronoloji ardıcıllığına riayət etməyən müəllif, ardınca 1920-ci il aprelin 28-də Azərbaycanda Sovet haki- miyyətinin qurulduğunu bildirir. Gördüyümüz kimi, müəllif, sovet hökumə- tinin yaradılmasını dönə-dönə qeyd edir, lakin onun hansı sosial-iqtisadi əsaslar üzərində qurulduğunu ortaya qoymur. Müəllif, "burjua-mülkədar is- tismarı", "xarici imperialistlərin zülmü", "yoxsulluq və hüqusuzluq" klişelə- ri ilə Azərbaycan Cümhuriyyətini sətiraltı şəkildə qeyd edir.[35]

Bildiyimiz kimi, müəllif, sovet siyasi görüşlərindən dolayı, kommu- nist sistemini təbliğə mükəlləf olunduğundan, hər hansı bir təsisatın adını çəkməməlidi, amma bununla belə qeyd edilən ifadələrlə Cümhuriyyət ka- talizator rolunda meydana çıxır. Bundan əlavə müəllif, Azərbaycanın 57 il ərzində iqtisadiyyat, elm və mədəniyyət sahəsindəki inkişaf və nailiyyətləri sadalamaqla sovet hakimiyyətinin xalq hökuməti olduğuna iddia etməsilə, əvvəlki siyasi quruluşu tənqid etmək məqsədi daşıyır.[36] Müəllif, Sovet ha- kimiyyətinin qurulmasını "Azərbaycanın əvvəlki ictimai-iqtisadi və siyasi inkişafı"na və "xalqın milli azadlıq uğrunda uzun müddətli mübarizə"sinə bağlamaqla, obyektiv qanunauyğunluğun nəticəsi kimi verir.

Bununla belə müəllif, Azərbaycanı Rusiyanın ayrılmaz tərkib hissəsi hesab edir[37]. Sovet hakimiyyətini "Proletariat diktaturası" kimi qeyd etməklə müəllif, sovet hakimiyyətinin fəhlə-kəndli hökuməti olduğunu isbata çalışır. Gördüyümüz kimi, Azərbaycanın Sovet Rusiyası tərəfindən istilasını qanuniləşdirməyə istiqamətlənmiş materialda təbii olaraq, müəllif, Cümhuriyyəti "müsavat hökuməti", "müsavatçılar", "müsavat hökmranlığı", "müsavat rejimi", "mənfur müsavat hökuməti", "xarici hərbi müdaxilə və milli zülm, əksinqilab"[38] adlandırmaqla, bir partiyanın qeyri-qanuni hakimiyyəti kimi şərh edir.

Azərbaycanda sovet hakimiyyətinin qurulması və izah olunduğu, tarixi sənədlər əsasında tarixçi Adil Hüseynov və jurnalist Vladimir Mixayloviç Sinitsının müştərək yazdığı oçerklərdən ibarət "Сражающаяся Мугань" (Döyüşən Muğan) əsərində Azərbaycan Cümhuriyyəti müxtəlif ifadələrdə dəfələrlə qeyd olunur. Müəlliflər Cümhuriyyəti "əksinqilabi müsavat", "mülkədar-kapitalist hökuməti", "müsavat Azərbaycanı", "müsavat rejimi", "müsavatçıların dövrü", "burjua-mülkədar müsavat rejimi"[39] istilahları ilə interpretasiya etmişlər.

1918-20-ci illərin bolşevik mətbuatının şərhi olan bu əsərdə Cümhuriyyət səthi qeyd edilir. Belə ki, sovet hakimiyyəti uğrunda mübarizənin fonunda

[35] T.F.Şoloxova, Azərbaycan SSRİ xalqlarının vahid ailəsində, 1977, Azərbaycan SSR "Bilik" Cəmiyyəti Mühazirəçiyə kömək, Bakı, s.50.
[36] Şoloxova, a.g.e., s. 3.
[37] Şoloxova, a.g.e., s. 5.
[38] Şoloxova, a.g.e. s. 4-6.
[39]A.A Quseynov, V.M. Sinitsın, Srajayuşayasya Muqan. 1979, Azerneşr, Baku, s. 28-74.

Azərbaycan hakimiyyəti aşkara çıxır. Gördüyümüz kimi, Cümhuriyyətin işğalına Azərbaycanda fəhlə-kəndli hökuməti kimi təqdim edilən sovet hakimiyyətinin qurulması aspektindən yanaşılır.

Müəlliflər sovet rejimi senzurasına uyğun əsər yazmaqla, mənsub olduqları quruluşun təbliğini aparmışlar. Lakin bütün səylərə baxmayaraq, tarixi hadisələrin xronoloji ardıcıllığının göstərilməsi Azərbaycan Cümhu- riyyətini ortaya qoymuş, onun qanuni hakimiyyət stastusunu təsdiqləmişdir.

Sovet hakimiyyətinin Azərbaycandakı qələbəsinin miqyasını geniş- ləndirmək məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasının təşəbbüsü ilə 1977-ci ildə "Elm" nəşriyyatında "Великий Октябрь и расцвет экономи- ки и культуры Советского Азербайджана" (Böyük Oktyabr və Sovet Azərbaycanının iqtisadiyyat və mədəniyyətinin çiçəklənməsi) məcmuəsi çap olunmuşdur[40]. Üç bölmədən ibarət topluda sovet hakimiyyəti dövründə Azərbaycanın iqtisadi, sosial və mədəni həyatındakı yüksəlişi mədh edən məqalələr verilmişdir. Azərbaycanın görkəmli alimləri tərəfindən qələmə alınan, sovet hakimiyyətinin Azərbaycan xalqının taleyində "müstəsna rolu" fikrinin ictimai şüura yeridildiyi yazılarda Azərbaycan Cümhuriyyətindən sətiraltı ifadələrlə bəhs edilir.

Topluya giriş sözünü məsul redaktor, akademik Əlisöhbət Sumbat- zadə yazıb. Müəllif, "Заря Октября и рождение Советского Азербай- джана" (Oktyabr şəfəqi və Sovet Azərbaycanının yaranması) müqəddiməsində toplunun 60 illiyə həsr olunduğunu qeyd edərək, Leninin sözlərilə oktyabr inqilabını dünya tarixində yeni epoxa adlandırır[41]. 1918-ci ilin mart hadisələrini "əksinqilabi-millətçi Müsavat" partiyasının Bakı Sovetinə qarşı qiyamı kimi qiymətləndirərək, totalitar rejimin diqtəsilə məsuliyyəti milli qüvvələrin üzərinə qoyur. Bakıda sovet hakimiyyətinin iki tərəfdən "xarici müdaxiləçilərin və eser, menşevik, daşnak və müsavatçıların" hücumuna məruz qaldığını bildirir[42]. Müəllif, Azərbaycan Cümhuriyyətinin türk komandanlığının dəstəyilə yaradıldığını qeyd etsə də, hökumətin başçısı kimi F.Xoyskini vurğulayır. Müəllif, Cümhuriyyət-türk qoşunlarının xadimlərinin paytaxta doğru yürüşlərini Osmanlı imperiyasının Azərbaycanda genişlənmiş müdaxiləsi kimi təqdim edir. Ə.Sumbatzadə Bakının azad edilməsinə "türk müdaxiləçiləri, əksinqilabi millətçi müsavat hökumətinin himayədarı ingilis imperialistlərinin" istilası cümləsilə şərh verir. Müəllif, Cümhuriyyət dövrünə "müsavat rejiminin ağalığı" izahını verərək, Lənkəranda yaradılmış separatçı bolşevik hakimiyyətinin "müsavat hökuməti"ni tanımadığını bildirir[43]. Ə.Sumbatzadə sovet tarix elminin nümayəndələrindən biri kimi Azərbaycanda oktyabr inqilabının "nailiyyətləri"nə gedən yolu təsvir edərkən, Cümhuriyyətin

[40] Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana. 1977, Elm, Baku.
[41] A.S. Sumbatzade "Zarya Oktyabrya i rojdeniye Sovetskoqo Azerbaydjana". Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, Elm, Baku, 1977, s. 5.
[42]Sumbatzadə. a.g.m. s. 8.
[43]Sumbatzadə. a.g.m. s. 9.

təhlilini mənfi müstəvidə verməklə, onun bir dövlət kimi mövcudluğunu ortaya qoyur. Müəllif, sovet rejiminin müəyyənləşdirdiyi çərçivədə yazmasına rəğmən, tarixi obyektivliyi gizlədə bilməmiş, alternativ quruluş simasında, Cümhuriyyəti nəzərə çatdırmışdır. Halbuki, Azərbaycanda sovet hakimiyyətinin qurulmasına aid yazdığı əsərlərdə müəllifin əsas məqsədi Cümhuriyyəti inkar etməkdir.

Gördüyümüz kimi, 70 illik dönəmdə sovet tarixşünaslığının prioritet mövzusuna çevrilmiş Azərbaycanda sovet hakimiyyətinin qurulması mə- sələsinə həsr olunan yüzlərlə geniş həcmli məqalələr, əsərlər, monoqrafiya- lar və araşdırmalarda Cümhuriyyətə səthi və yaxud ətraflı çəkildə münasibət bildirilmişdir. Bütün sovet müəllifləri istisnasız olaraq, Azərbaycanda sovet hakimiyyətinin qurulmasının Cümhuriyyətin süqutundan keçdiyini qeyd etmək məcburiyyətində qalmışlar.

Topluda “Поступь индустрии” (Sənayenin inkişafı) məqaləsi ilə çıxış edən Qüdrət Əbdülsəlimzadə Rusiya imperiyasının tərkibində olan Azərbaycanın digər milli ərazilərdən yüksək formada fərqləndiyini bildirir. Müəllif, imperiya ərazisnin 0,4%, əhalisinin isə 1,4%-ni təşkil edən Azərbaycanın sənaye və kənd təsərrüfatı sahəsindəki göstəricilərini ortaya qoyaraq, sosialist inqila bının xüsusi mülkiyyəti ləğv etməsi nəticəsində ölkə iqtisadiyyatının müsbətə doğru köklü surətdə dəyişdiyini bildirir. Maraqlıdır ki, Q.Əbdülsəlimzadə, Azərbaycan Cümhuriyyətini açıq şəkildə ümumiyyətlə qeyd etmir, lakin “sosialist inqilabının qələbəsi” cümləsində alternativin quruluşun mövcudluğunu sətiraltı ifadə ilə bildirir.[44]

A.Mahmudov, H.Qasımov və B.Səmədovun həmmmüəllifliyi ilə yazılmış “Подъем сельского хозяйства” (Kənd təsərrüfatının yüksəlişi) məqaləsində oktyabr çevrilişi və sosial-siyasi məsələlərdən başlıcası kimi “mülkədar torpaq sahibliyinin ləğvinə yönələn aqrar islahat” olduğunu bildirən müəlliflər, əvvəlki siyasi dünya tarixində dönüş nöqtəsi kimi təsnifləndirilir. Müəlliflər, Kommunist partiyasının proqramında aqrar məsələnin qoyulduğunu bildirməklə, onun sosialist quruculuğu yolunda əsas yer tutduğunu vurğulayırlar[45]. Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra qarşıda duran iqtisadi quruluşun çatışmazlıqlarını göstərməyə çalışırlar. Məsələ ondadır ki, müəlliflər sovet hakimiyyətinin hansı dövlət üzərində “qələbə”sini qeyd etmirlər. Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 5 may dekreti ilə bütün - xan, bəy, monastır, xəzinə və digər torpaqların milliləşdirilərək, kəndlilərə verilməsi ilə sovet quruluşunun “fəhlə-kəndli hökuməti” olduğunu isbata çalışan[46], müəlliflər, qeyd etməsələr də, təhlildən görünür ki, əsas məqsəd Cümhuriyyətin tənqidi ilə bolşevik işğalına haqq qazandırmaqdır. Gördüyümüz kimi, müəlliflər dünya siyasi sisteminin fövqünə qaldırdıqları sosialist cəmiyyətinin alternativsizliyini

---

[44]Q. Abdulsalimzade, “Postup industrii”. Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, Elm, Baku, 1977, s. 19.

[45] A. Maxmudov, Q. Kasumov, B.Samedov, “Podyem selskoqo xozyaystvo”, Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, Elm, Baku, 1977, s. 54.

[46] Mahmudov, Qasımov, Səmədov, a.g.m. s. 55.

isbata çalışmalarına rəğmən, Azərbaycan Cümhuriyyəti araşdırmanın arxa plandan məzmununu təşkil edir.

M.Allahverdiyevin “Коренные изменения социальной структуры населения” (Əhalinin sosial strukturunun əsaslı dəyişiklikləri) məqaləsində oktyabr inqilabının qələbəsi və Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra əhalinin strukturunda köklü dəyişikliklərin meydana gəlməsi araşdırılır. İstismarın və onun törətdiyi bütün səbəblərin aradan qaldırılması ilə fəhlə və kəndlilərin, yeni ziyalı təbəqəsinin formalaşdığını qeyd edən müəllif, əvvəlki siyasi quruluşun mövcudluğunu ortaya qoyur. M.Allahverdiyev, sovet hakimiyyətini mədh etməklə, tarixdən silməyə çalışdığı Azərbaycan Cümhuriyyətini sətiraltı ifadələrlə dönə-dönə vurğulayır. Müəllif, Cümhuriyyəti “türk-alman və ingilis müdaxiləçiləri və müsavatçıların ağalığı” kimi şərh edərək, “1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması”[47] ifadəsilə milli hakimiyyətin devrilməsinə interpretasiya verir. Lakin “istismarçı siniflərin yaratdığı köhnə dövlət maşını” ifadəsində müəllif, milli hökuməti nəzərdə tutur[48]. Müəllif, Azərbaycan SSR-nin təsisinin həyatın müsadirəsi”, “zülmkar siniflər”, “sinfi prinsiplər”[49] istilahları bütün sahələrindəki inkişafından bəhs etməklə, Cümhuriyyətin antixalq siyasətini “ifşa etmək” məqsədini izləyir.[50] Topludakı digər müəlliflərdən fərqli olaraq M. Allahverdiyev, Cümhuriyyəti daha geniş formada ifadə edir. Doğrudur, müəllif, Cümhuriyyətin rəsmi adını qeyd etmir, lakin “sovet hakimiyyətinin qələbəsi”, “istismar”, “mülkədar, burjuaziya”, “bəy-xan torpaqlarının ilə milli hakimiyyəti ictimaiyyətə çatdırır.

Azərbaycanda Sovet hakimiyyəti uğrunda mübariz, Bakı sovetinin rəhbəri Stepan Şaumyanın 100 illik yubileyi münasibətilə Püstəxanım Əziz- bəyova və Məmməd Qazıyevin həmmüəllifliyi ilə 1978-ci ildə “Stepan Şaumyan” bioqrafik əsəri çapdan çıxmışdır. Müəlliflər S.Şaumyanı icti- maiyyətə Azərbaycanda sovet hakimiyyəti uğrunda Bakı sovetinin rəhbəri kimi sovet ideologiyasının direktivləri əsasında çatdırmışlar. Azərbaycan Cümhuriyyətinin “Zaqafqaziya burjua millətçi partiyalarının bu diyarı par- çalamaq” məqsədindən yarandığını bildirən müəlliflər, ardınca F.Xoyskinin sədrliyi ilə “müstəqil Azərbaycan” hökumətinin təşkilini qeyd edirlər. Təd- qiqatçılar, milli hakimiyyətin yaranmasını “daxili və xarici əksinqilabın Ba- kıdakı Sovet hakimiyyətini boğmaq” kimi qiymətləndirir. Azərbaycan Cüm- huriyyətinin təsisi “Sovet Rusiyasına qarşı, Sovetlər hakimiyyətini boğmaq uğrunda mübarizə üçün dünya imperializmi ilə sövdələşən Zaqafqaziya əks- inqilabçıları”nın qurumu simasında qələmə verilir[51]. Cümhuriyyət və türk qoşunlarının Bakını azad etməyə yönəlmiş əməliyyatlarını “hərbi müdaxilə və vətəndaş müharibəsi”, Cümhuriyyət xadimləri isə “Zaqafqaziya əksinqi- labçıları müsavatçılar, xanlar,

---

[47] M.Allaxverdiev, “Korennıye izmeneniya sosialnoy strukturı naseleniya”. Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, Elm, Baku, 1977, s. 84-86.
[48]Allahverdiyev, a. g. m. s. 87.
[49] Allahverdiyev, a. g. m. s. 84-89.
[50] Allahverdiyev, a. g. m. s. 88-89.
[51] P.Ə.Əzizbəyova, M.A .Qazıyev. Stepan Şaumyan, 1978, Azərnəşr, Bakı, s.125.

bəylər[52] sözlərilə təqdim edilirlər. Müəliflər, S.G.Şaumyanı "Azərbaycanda sovet hakimiyyətinin qurucusu kimi təqdim etməklə, əslində onun Cümhuriyyəti yıxmaq üçün pozuculuq işləri apar- dığını nəzərə çatdırırlar. Azərbaycan hökumətini bolşevik leksikonu ilə xa- rakterizə edərək, ona bir qrupun hakimiyyəti kimi təqdimat verən müəlliflər, sovet hakimiyyətinin qurulması prosesində Cümhuriyyətə dövlət kimi yanaşırlar. Başqa sözlə, ideoloqlar, sovet hakimiyyətinin bərqərarının Cümhuriyyətin süqutundan keçdiyini göstərməyə məcbur olurlar.

Hacıbaba Əzimovun 1971-ci ildə "Elm" nəşriyyatı tərəfindən çap olunmuş "Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər)" əsərində Azərbaycanda sovet hakimiyyətinin qurulmasının sosial-siyasi zəminini əsaslandırmağa cəhd göstərir[53]. Bolşeviklərin Bakıya iddialarını "sovet ha- kimiyyəti uğrunda mübarizə" kimi qələmə verən müəllif, kütlənin bolşevik ideyalarına inamını isbata çalışır[54]. Milli qüvvələrə "kənd burjua ziyası, qol- çomaqlar və əksinqilabi ünsürlərə qarşı mübarizə" şərhini verir, digər tərəf- dən sovetləri Azərbaycanda yeganə qanuni hakimiyyət kimi vurğulamaqla, Cümhuriyyətin yaranmasına "Türkiyənin Azərbaycanı işğalı" aspektindən yanaşılır[55]. Cümhuriyyəti "Azərbaycanda ingilis müdaxiləçilərinin və müsavat burjua-mülkədar hökumətinin hökmranlığı"nın bərqərarı kimi qeyd edən müəllif, milli dövlətin mövcudluğuna diqqət çəkmədən sovet hakimiyyətinin qurulmasını obyektiv qanunauyğunluq kimi deyil, fakt kimi ortaya qoyur. H.Əzimov, qarşıda duran əsas vəzifənin proletar diktaturası qurmaq olduğunu qeyd etməklə, Azərbaycanda yeni quruluşu-sovet hakimiyyətini fəhlə-kəndli hökuməti statusunu formalaşdırmaq məqsədini güdür.

Sovet İttifaqı Kommunist partiyası Mərkəzi Komitəsi yanında Marksizm-Leninizm İnstitutunun Azərbaycan filialının KP MK Partiya Tarixi İnstutunun materialları əsasında 1970-ci ildə nəşr olunan "В.И. Ленин об Азербайджане" (V.İ.Lenin Azərbaycan haqqında) kitabçasında Azərbaycanda sovet hakimiyyətinin qurulması haqqında müxtəsər şəkildə məlumat verilir. V.İ.Leninin Azərbaycanda sosialist inqilabının qələbəsi uğrunda Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlıq mübarizəsini diqqətlə izlədiyi bildirilir[56]. Müəlliflər, V.İ.Leninin Azərbaycanda Sovet hakimiyyə- tinin taleyindən narahatlıq keçirdiyini qeyd edərək, Azərbaycan zəhmətkeş- lərinin sosial və milli zülmdən azad olunmasının ilhamvericisi adlandırırlar. Azərbaycanda sovet hakimiyyətinin qurulmasında V.İ.Leninin təxirəsalın- maz kömək göstərilməsi üçün göstərişlər verdiyinə dair[57] Qafqaz hərbi inqi- lab komitəsi cəbhəsinə göndərdiyi məktubunu nümunə gətirirlər. Əsər hegemon partiyanın sifarişi ilə sovet dövlətinin banisi V.İ.Leninin idollaşdırılması məqsədilə

---

52 Əzizbəyova, a..g.e., s.128-132.
53 H.Əzimov, Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər), 1971, Elm, Bakı, s. 166-167.
54 Əzimov, a.g.e.s.169-172.
55 Əzimov, a.g.e. s. 173-184.
56 V.İ.Lenin ob Azerbaydjane, İnstitut İstorii Partii SK KP Azerbajdane Filial İML pri SK KPSS, Azerneşr, Baku, 1970, s. VI.
57 V.İ. Lenin ob Azerbaydjane, s. VII.

tərtib edilmişdir. Azərbaycanda sosializm quruluşunun təsisində Leninin əvəzolunmaz roluna diqqət çəkən müəlliflər, “milli zülm” klişesi ilə Azərbaycan Cümhuriyyətini üstüörtülü şəkildə ifadə edirlər.

## Sonuç

Gördüyümüz kimi, 1970-ci illərdə Azərbaycan Xalq Cümhuriyyə- tinin tarixi sovet tarixşünaslığının ziddiyyətli xarakterindən dolayı təzadlı aspektdən şərh edilmişdir. İsitisnasız olaraq, bütün müəlliflər faktoloji materiallara istinad etməklə, Azərbaycan Cümhuriyyətini hadisələrin mərkəzinə çıxarmışlar.

Əgər 1920-30-cu illərdə A.Rayevski, Y.Rathauzer, A.Steklov[58] və digərləri “Müsavat” partiyasına dair əsərlər yazmaqla kommunist partiyası- nın üstünlüyünü isbata çalışırdılarsa, artıq 1950-ci illərdən etibarən rəsmi tarix konsepsiyasına müvafiq olaraq mövcud rejimin hegemonluğuna dair tədqiqatlarda alternativ qüvvələr arxa plana keçirilirdi.

1970-ci illərdə proses davam etdirilmiş, sosializm ideologiyasının dünya miqyasında vahidliyinin isbatına həsr olunmuş araşdırmalar meydana gəlmişdir. Lakin siyasi konyuktura yönümündən yazılmış əsərlərdə Azərbaycan Xalq Cümhuriyyəti hadisələrin fundamental səbəbi kimi qeyd olunmaqla, sovet quruluşunun müqəddəs elan etdiyi kultların ideoloji səbat- sızlığını ortaya çıxarır. Nəticə etibarilə, ideoloji xəttin təsirilə yazlmiş araş- dırmalarda Cümhuriyyət təkzibolunmaz faktlarla dövlət statusunda təqdim edilməklə, totalitar rejimin müəyyənləşdirdiyi senzura qaydalarının pozul- ması müşahidə olunur.

Bir sözlə, inzibati-bürokratik sistemin təməl prinsiplərinin əsas gö- türüldüyü bu tədqiqatlarda mənfi aspektdən interpretasiya verilməklə, Azərbaycan Cümhuriyyətinin tarixi təhrif edilərək saxtalaşdırlımışdır. Lakin sovet ideoloqlarının təkvektorlu yanaşmasına baxmayaraq, milli hökumət ictimai-siyasi fikrə tarixi hadisələrin katalizatoru kimi təqdim edildiyindən Azərbaycan Xalq Cümhuriyyətinin legitimliyi təsdiqlənmişdir.

[58] A. Rayevskiy, Anqliskaya intervensiya i Musavatskoye pravitelstvo (İngilis müdaxiləçiləri və Müsavat hökuməti). 1927, Aзqiz, Baku, 195 s.; eqo je: Anqliyskiye “druzya” i Musavatskiye “patriotı” (İngilis “dostlar” və Müsavat vətənpərvərləri), 1927, Aзqiz, Baku, 72 s.; eqo je: Partiya Musavat i yeyo kontrrevolsionnaya rabota (Müsavat partiyası və onun əksinqilabi fəaliyyəti. 1929, Baku, 64 s.; Y.Rathauzer, Bakıda inqilab və vətəndaş müharibəsi. 1917-1918-ci illər. 1928, Azqiz, Bakı, 224 s.; onun; Şura Azərbaycanı uğrunda mübarizə, 1929, Azqiz, Bakı, 116 s.; A.Steklov, Armiya Musavatskoqo Azerbaydjana. (Müsavat Azərbaycanının ordusu), 1928, Azqiz, Baku, 70 s.

## Ədəbiyyat

*Azərbaycan tarixi*, (1973). ELM, Bakı.

ƏLİYEV, X., (1970). *Azərbaycanda sosialist inqilabının bəzi xüsusiyyətləri*. AZƏRNƏŞR, Bakı.

ƏZİMOV, H. , (1971). *Azərbaycan qəzalarında sovetlər (1917-1918-ci illər),* ELM, Bakı.

ƏZİZBƏYOVA, P.Ə, Qazıyev, M.A., (1978). Stepan Şaumyan (*bioqrafik oçerk*), AZƏRNƏŞR, Bakı,

İBRAHİMOV, Z., (1970). *Lenin və Azərbaycanda sosialist inqilabının qələbəsi*. AZƏRNƏŞR, Bakı.

*Lenin milli siyasətinin yetirməsi*, (1974). AZƏRNƏŞR, Bakı.

RATHAUZER, Y., (1928). *Bakıda inqilab və vətəndaş müharibəsi. 1917-1918-ci illər,* AZQİZ, Bakı.

RATHAUZER, Y., (1929). *Şura Azərbaycanı uğrunda mübarizə*. AZQİZ, Bakı.

RÜSTƏMBƏYLI, M. (1971). *Xalqın səadəti uğrunda*., AZƏRNƏŞR, Bakı.

ŞOLOXOVA, T.F., (1977). *Azərbaycan SSRİ xalqlarının vahid ailəsində*. AZƏRBAYCAN SSR "BILIK" CƏMİYYƏTI MÜHAZİRƏÇİYƏ KÖMƏK, Bakı.

ABDULSALİMZADE, Q., (1977). "*Postup industrii*", Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, ELM, Baku, s.19-40.

AVREX, A.Y., (1968). "*Russkiy absolyutizm i eqo rol v utverjdenii kapitalizma v Rossii*", История СССР, № 2, s. 82-104.

ALLAXVERDİYEV, M., (1977). "*Korennıye izmeneniya sosialnoy strukturı naseleniya*". Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, ELM, Baku, s. 84-96.

BOVİN, A.E., (1988). "*Perestroyka: pravda o sosializme i sudba sosializma*" Perestroyka: qlasnost, demokratiya, sosializma. İnoqo ne dano, ПРОГРЕСС, Moskva, s. 519-551.

VOLOBUYEV, P.V., (1966). "*V.İ. Lenin ob obşix zakonomernostyax Velikoy Oktyabrskoy sosialistiçeskoy revolyusii*". Znaniye, Moskva.

QANELİN R.Ş., (1990). “*Tvorçeskiy put A.Y. Avrexa*”. İstoriya SSSR, № 4, c. 102-112.

QOLİKOV V., MURAŞOV S., ÇXİKVİŞVİLI İ. i dr., (1969). “*Za Leninskuyu partiynost v osveşenii istorii KPSS*”, Kommunist, № 3, Moskva, s. 68-72.

QUSEYNOV A.A., SINITSIN V.M., (1979). *Srajayuşayasya Muqan*. AZERNEŞR, Baku.

DUDİN, İ.Q., (1970). *Prorıv bronepoezdov*, AZERNEŞR, Baku.

İVANOV, L.M., (1968). “*Samoderjavie i raboçiy klass: nekotorıe voprosı politiki sarizma*”, Voprosı istorii, №. 6, s. 38-53.

*V.İ. Lenin ob Azerbaydjane*, (1970). Azerneşr, Baku.

MİLMAN, A.Ş., (1971). *Azerbaydjanskaya SSR-suverennoe qosudarstvo v sostave SSSR*. AZERNEŞR, Baku.

MİKOYAN, A.İ., (1971). *Doroqoy borbı*. Kn.1, POLİTİZDAT, Moskva.

MİKOYAN, A.İ., (1970). *Mısli i vospominaniya o Lenine*. POLİTİZDAT, Moskva.

MAXMUDOV A, KASUMOV Q, SAMEDOV B., (1977). “*Podyem selskoqo xozyaystva*”, Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, ELM, Baku, s.54-72.

RAYEVSKİY, A., (1927). *Anqliyskaya intervensiya i Musavatskoye pravitelstvo*. AZQİZ, Baku.

RAYEVSKİY, A., (1927). *Anqliyskie “druzya” i Musavatskuye “patriotı*”. AZQİZ, Baku.

RAYEVSKİY, A., (1929). *Partiya Musavat i yeyo kontrrevolyusionnaya rabota*. AZQİZ, Baku.

STEKLOV, A., (1928). *Armiya Musavatskoqo Azerbaydjana*. AZQİZ, Baku,

SUMBATZADE, A.S., (1972). *Sosialno-ekonomiçeskie predposılki pobedı Sovetskoy vlasti v Azerbaydjane*, NAUKA, Moskva.

SUMBATZADE, A.S., (1977). “*Zarya Oktyabrya i rojdenie Sovetskoqo Azerbaydjana*”. Velikiy Oktyabr i rassvet ekonomiki i kulturı Sovetskoqo Azerbaydjana, ELM, Baku, s. 5-18.

TARNOVSKİY, K. N., (1964). *Sovetskaya istorioqrafiya rossiyoskoqo imperializma*, NAUKA, Moskva.